Türküstan.- 2020.- 9-22 iyun. S. 21.

*Amirxan Balkıbek*

# Sıradakı şeir

Cadar yerə kor yağış da yağarmış,
Gözü kor taleyim, heç gülmədin ki...
Səni sevmək istəmişdim, Qazaxım,
Tale quşu uçub, heç bilmədim ki...

İsti yazında da yuxum üşüyür,
Avqustun yağışsız xəstə halları...
Qova bilərmi ki, bu gücsüz şeirim,
Beynimdəki cavabsız sualları...

Toz-duman içində bəslənər ömrüm,
Özüm taleyimlə düşmənlik etdim...
Sözü çəpləşməyən gündüz-gecətək,
Qonşu çağıranda dinməzcə getdim.

Şeirimdən ruhumu tapa bilərsən,
Baltək şirin olsa, acı da olur...
Göz yaşım ulduztək axaraq gedir,
Ey Qazax içimə eşqindir dolur...

Çoxlu şeirlərdə bozkır deyərlər,
Əslində bozkır yox, boz səhralardı.
Kiçicik bir evin qonağı oldum,
Nə çayı, nə də ki, çörəyi vardı...

Dünya-aləm dəyişsə, könlü dili yaxşılar,
Ucadan uca tutar bozqurdlu bayrağını!
Səni sevmək istəmişdim, Qazaxım,
Gör hardayam, özləmişəm qucağını...